UOT 371.

***Sevinc Qərib qızı Əliyeva,***
*Bakı şəhəri Nəsimi rayonu, general-leytenant K.A. Kərimov adına*
*8 №-li tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini*

# MƏKTƏBİN İDARƏ EDİLMƏSİNDƏ PLANLAŞDIRMANIN ƏHƏMİYYƏTİ VƏ ONUN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

***Севиндж Гариб гызы Алиева,***
*завуч по учебно-воспитательной работе школы №- 8 им. генерал-лейтенанта*
*К.А. Керимова Насиминского района гор. Баку*

## ВЛИЯНИЕ И ЗНАЧЕНИЕ ПЛАНИРОВАНИЯ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ В УПРАВЛЕНИИ ШКОЛЫ

***Sevinj Garib Aliyeva,***
*head teacher on the educational part of the school №- 8 named after*
*general-lieutenant K.A. Kerimov Nasimi district of Baku*

## İNFLUENCE AND IMPORTANCE OF PLANNING ON THE QUALITY OF EDUCATION IN SCHOOL MANAGEMENT

**Xülasə:** Məqalədə məktəbin idarə olunmasında planlaşdırmanın əhəmiyyəti və bunun təhsilin keyfiyyətinin yüksəlməsinə təsiri məsələsindən danışılır. Məqalədə, həmçinin, planlaşdırmanın növlərindən, onun tərtibinə verilən tələblər şərh olunur.
***Açar sözlər**: İdarəetmə, təhsil, planlaşdırma, kollegiallıq, rəhbərlik*

**Резюме:** В статье отмечается, что планирование является важным этапом в управлении образовательным учреждением. Это один из видов управленческого решения. Оно позволяет осуществить совокупность мер по реализации задач, стоящих перед школьным коллективом.

Планирование вытекает из педагогического анализа. При планировании необходимо учитывать перспективы развития народного образования, школы, воспитание и образование подрастающего поколения.
***Ключевые слова**: управление, образование, планирование, коллегиальность, руководство*

**Summary:** Planning is an important step in the management of the educational institution. This is a type of management decision. It allows you to implement a set of measures to implement the tasks facing the school team.

Planning derives from pedagogical analysis. When planning, it is necessary to take into account the prospects for the development of public education, schools, upbringing and education of the younger generation.
***Key words**: management, education, planning, collegiality, leadership*

Məktəbin idarə edilməsində düzgün planlaşdırma pedaqoji kollektivdə səmərəli təhsil mühitinin yaradılması, müəllim və şagirdlər üçün əlverişli şəraitin təmin edilməsi, kollektivdə düzgün psixoloji iqlimin təşkil edilməsi, vaxtın səmərəli bölüşdürülməsi, əməyin elmi təşkili, aktual pedaqoji məsələlərin düzgün proqnozlaşdırılması və nəhayət, təhsilin keyfiyyətinin yüksəldilməsi deməkdir.

Məktəbin fəaliyyətinə ümumi rəhbərliyi əsas etibari ilə məktəb direktoru, təlim-tərbiyə işləri üzrə direktor müavini, tərbiyə işləri üzrə direktor müavini, hərbi rəhbər (gənclərin çağırışaqədər hazırlığı üzrə rəhbər), məktəb psixoloqu, təsərrüfat işləri üzrə direktor müavinindən

təşkil olunmuş, eyni məqsədə müxtəlif vəzifələrlə xidmət edən məktəb rəhbərləri həyata keçirir. İdarəetmədə planlaşdırma dedikdə isə, müəyyən məqsədə nail olmaq üçün müvafiq obyektə (məktəbə, pedaqoji kollektivə) sistemli, ardıcıl, mütəşəkkil və müntəzəm təsirləri təmin edən fəaliyyət başa düşülür.

Planlaşdırma məktəbin səmərəli idarə edilməsində, rəhbərliyin düzgün fəaliyyət göstərməsində kompas rolunda çıxış edir. Plan nə qədər düzgün və sadə, sistemli və ardıcıl, konkret və real, dəqiq və çevik, dinamik və perspektivli olarsa, pedaqoji kollektiv üzvlərinin rahatlığı, işgüzarlığı, əlverişli iş rejimi təmin olunar və kollektiv qarşısında duran vəzifələr uğurla həyata keçirilə bilər.

Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" haqqında sərəncamında (24.10.2013) düzgün idarəetmənin bilavasitə təhsilin keyfiyyətinə təsiri aydın göstərilmişdir(1).

Strategiyanın üçüncü istiqaməti təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasıdır. Strategiya inkişaf etmiş ölkələrin təcrübəsini örnək alaraq təhsildə idarəetmənin ictimailəşmə prosesinin sürətlənməsini önə çəkir. Əlbəttə, təhsilin keyfiyyətinin yüksəldilməsində səmərəli idarəetmə və onun da düzgün planlaşdırılması mühüm rol oynayır. Bu, ilk növbədə, hər növ təhsil müəssisələrinin müstəqilliyinin artırılmasını, valideyn, şagird, tələbə və təhsil prosesinin digər iştirakçılarını geniş cəlb etməklə təhsil ocaqlarının idarə olunmasını, nəticəyönlü təhsil menecmentinin və digər çağdaş idarəetmə texnologiyalarının prosesə tətbiqini tələb edir. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin beynəlxalq təcrübə əsasında modernləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin yüksəldilməsi və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

Prof. R.L. Hüseynzadənin qeyd etdiyi kimi: "Planlaşdırma gələcəkdə hansı nəticələrin əldə olunacağını müəyyənləşdirmək üçün nəzərdə tutulan müxtəlif yönlü fəaliyyətdir. Məktəbin fəaliyyətinin planlaşdırılması məktəbin qarşısında duran vəzifələrin yerinə yetirilməsinin, təhsilin keyfiyyətinin yüksəldilməsinin əsas amili, mühüm açarıdır... Buna görə də məktəb işinə səhər dərsə başlayıb, axşam dərsdən çıxan bir müəssisə kimi baxılmamalı, o, insan yetişdirən, təkmilləşdirən, gənc nəsli həyata hazırlayan müqəddəs məbəddir" (2,11).

Məktəb işinin planlaşdırılmasında iki mühüm cəhətə xüsusi fikir vermək lazımdır:

1. Dövlətin məktəb qarşısında qoyduğu vəzifələrin həyata keçirilməsinin planlaşdırılması;
2. Məktəbdə təlim-tərbiyə keyfiyyətini yüksəltmək üçün görülən işlərin planlaşdırılması.

Məktəbdə həyata keçirilən təlim və tərbiyə işlərinin planlaşdırılmasına çox ciddi və məsuliyyətlə yanaşmaq tələb olunur. Məktəb fəaliyyətinin planlaşdırılması zamanı aşağıdakı ümumiləşdirilmiş pedaqoji qaydalara riayət edilməsi, iş təcrübələrimizə əsasən deyə bilərik ki, planlaşdırma daha real, daha praktik, daha konkret və daha dinamik olması təmin olunur:

1. Pedaqoji kollektivin iş təcrübəsini, müəllimlərin səriştəliliyini, peşəkarlığını, yaradıcılıq qabiliyyətlərini, maraq və meyillərini, şagirdlərin hazırlığını, fərdi imkanlarını, valideynlərin sosial vəziyyətini, ictimaiyyətin rəy və təkliflərini nəzərə almaq;

Bu pedaqoji qayda yenə də iş təcrübəmizə əsasən tələb edir ki, ilk növbədə, kollektivin motivlərinə, yaradıcı fəaliyyətinə əsaslanaraq, humanist, demokratik iş planı tərtib etmək lazımdır. Belə ki, pedaqoji kollektivin təcrübə dairəsi, müəllimlərin səriştəliliyi, peşəkarlığı, təşəbbüskarlığı, şagirdlərin bilik səviyyəsi, məktəbin şəraiti, imkanları, valideynlərin sosial vəziyyəti, şagird özünüidarə orqanlarının təklifləri nəzərə alınmalıdır.

2. Məktəb haqqındakı son qərar, direktiv göstərişlər, təlimatlar, habelə yeni tədris planları və proqramlarının ideya istiqamətlərini rəhbər tutmaq;

Bu qayda tələb edir ki, planlaşdırma prosesində müvafiq fəaliyyət üzrə rəhbər sənədlər, sərəncamlar, təhsillə bağlı qanunlar, yuxarı təşkilatların əmrləri, göstərişləri, normativ-hüquqi sənədlər əldə rəhbər tutulmalı və onlara istinad edilməlidir. Belə ki, bu rəhbər sənədlər planlaşdırmanın metodoloji əsasını təşkil edir, planlaşdırmaya düzgün istiqamət verir.

3. Gələcək aktual məsələlərin proqnozlaşdırılması əsasında planlaşdırmada zəruri düzəlişlər və əlavələri nəzərdə tutmaq;

Bu pedaqoji qayda tələb edir ki, planlaşdırmada ardıcıllıq və sistemliliyi nəzərə almaqla yanaşı, cari problemlərin həllinə yönəlmiş proqnozlaşdırmalar diqqətdə saxlanmalı, təhsillə bağlı aktual məsələlər meydana çıxdıqda plana əlavələrin edilməsi, düzəlişlərin aparılması mümkün olmalıdır.

4. Planın tərtibində kollegial orqanların fikirlərini, rəylərini nəzərə almaq.

Bu qayda tələb edir ki, kollektiv fikrin, rəyin, təkliflərin məhsulu olmalıdır. Planın tərtibində kollegial orqanların fikriləri, onların məsləhət və təklifləri mütləq nəzərə alınmalıdır.

Məktəbin əsas kollegial orqanı olan pedaqoji şuranın əsas funksiyalarından biri məktəbin fəaliyyət planının şurada təsdiq edilməsidir. Pedaqoji şurada müzakirə və qarşılıqlı fikir mübadiləsi əsasında təsdiq edilən plan məktəbin humanist, demokratik əsaslarla idarə edilməsinə zəmin yaradır.

Planlaşdırmanın üç növü vardır:

1. Strateji planlaşdırma. Strategiya – latınca "Sərkərdənin məharəti", "Uzaqgörmə" deməkdir. Strateji plan görüləcək işin əvvəlcədən uzun müddətli planlaşdırılmasıdır. Bu planın əsasında tematik və cari planlar tərtib edilir. Strateji planlaşdırma məktəbin bir tədris ilində görəcəyi işlərin planlaşdırılmasıdır.

İllik planlaşdırmanın, əsasən, aşağıdakı bölmələri olur:

1) Əvvəlki dərs ilində məktəbin fəaliyyətinin təhlili;

2) Yeni dərs ilində məktəbin qarşısında duran vəzifələr;

3) Ümumi icbari təhsilin həyata keçirilməsi;

4) Təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi;

5) Sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərin təşkili;

6) Şagirdlərin təlim-tərbiyə prosesində məktəb ailə və ictimaiyyətin əlbir işi;

7) Pedaqoji şuranın işi;

8) Məktəb şurasının işi;

9) Məktəbdə metodik işlərin təşkili;

10) Müəllimlərin ixtisasartırma və attestasiyası, diaqnostik qiymətləndirilməsi;

11) Elmi nailiyyətlərin, innovasiyaların və qabaqcıl pedaqoji təcrübənin tətbiqi;

12) Məktəbdaxili nəzarət və məktəbi idarəetmə məsələləri;

13) Səhiyyə-sağlamlıq və təşkilati təsərrüfat işləri;

14) Valideynlərlə aparılan işlər. Valideyn komitəsi və valideyn universitetlərinin işi.

15) Məktəbin maddi-texniki bazası.

2. Taktiki planlaşdırma. Bu, məktəb işinin yarımillik planlaşdırılmasıdır. Bu plan per-spektiv plandan irəli gəlir və onunla üzvi şəkildə bağlıdır. Yarımillik planda görüləcək işlər, hər bir işin icrasına cavabdeh şəxs və işin icra vaxtı konkret olaraq göstərilir.

3. Cari planlaşdırma. Bu aylıq, qrafik planlaşdırmadır ki, qrafik, tor - plan formasında tərtib edilə bilər. Burada həftə ərzində görüləcək işlər konkret olaraq göstərilir, iş üçün cavabdeh şəxs də öz əksini tapır. Cari planlaşdırmaya müəllimin tematik və dərs üzrə planları, sinif rəhbərlərinin rüblük və illik, məktəb direktoru və direktor müavinlərinin həftəlik və aylıq planları daxildir. Həmin planların əlaqəli şəkildə həyata keçirilməsi təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsində ən zəruri şərt kimi çıxış edir. "Məktəbin iş planlarının düzgün tərtibi, özündən sonra gələn bütün işlərin müvəffəqiyyətli icrası üçün əlverişli zəmin yaradır" (3, 67).

Buradan da bu nəticəyə gəlmək olar ki, planlaşdırma kollektiv səciyyə daşıyır və birgə rəyə, təkliflərə əsaslanır. Planlaşdırmada nəzərdə tutulan işlərin həyata keçirilməsinin təminatına məktəb rəhbərliyi məsuliyyət daşısa da, nəzərdə tutulan məqsədə çatmaq üçün müəyyən edilmiş vəzifə bölgüsündə hər kəs öz səlahiyyəti çərçivəsində öz işini icra etməli və onlar bu işə məsuldurlar.

Məktəbin iş planı çoxkomponentliliyi ilə səciyyələnir. Belə ki, məktəbi idarəetmədə iş planları funksional vəzifələrinə görə müxtəlifdir. Buna baxmayaraq, məktəbin bütün planları vahid məqsədə - məktəbin təlim və tərbiyə keyfiyyətinin yüksəldilməsinə, təkmilləşdirilməsinə xidmət etməlidir.

**Problemin aktuallığı:** Hər bir işin uğurlu nəticəsi onun düzgün planlaşdırılmasından başlayır. Düzgün plan məqsədə doğru gediləcək yolun yarısı deməkdir. Planlaşdırma idarəetmə sahəsi üçün, xüsusilə daim hərəkətdə, dinamikada olan məktəbin

idarə edilməsində vacib və əhəmiyyətlidir. Bu cəhətdən araşdırdığımız problem aktualdır.

**Problemin yeniliyi:** İdarəetmə dedikdə rəhbərliyin məktəb daxilində həyata keçirməli olduğu tədbirlərin, planlaşdırdığı işlərin realizə edilməsi, həmçinin pedaqoji proses və münasibətlərin tənzimlənməsi üçün düşünülmüş, uyğun fəaliyyət göstərməsi nəzərdə tutulur. İdarəetmədə məqsədyönlülük, humanistlik, demokratiklik, konkretlik, obyektivlik, prinsipiallıq, kollegiallıq, ədalətlilik, işgüzarlıq, elmilik əsas prinsiplər hesab edilir ki, buna diqqət yetirilməlidir.

**Problemin praktik əhəmiyyəti:** Məqalədə verilmiş şərhlər, izahlar praktik əhəmiyyət daşıyır, məktəb rəhbərləri və digər təhsil işçiləri məqalədən dəyərli mənbə kimi istifadə edə bilərlər

**Ədəbiyyat:**

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" haqqında ölkə Prezidenti cənab İlham Əliyevin 24 oktyabr, 2013-cü il tarixli sərəncamı. “ Xalq qəzeti”, 25 oktyabr, 2013-cü il.

2. Hüseynzadə R.L. Məktəbdə metodik işin təşkili: Metodik vəsait. Bakı: Aktiv, 2013.

3. Cabbarov R. H. Məktəbdə təlim-tərbiyə işlərinin idarə edilməsi və planlaşdırılması məsələləri. Bakı: Qarant, 2000.

**E-mail**: reraro@mail.ru

**Rəyçilər:** *ped.ü.elm. dok., prof.* L.N. Qasımova
*ped. ü.elm. dok. prof.* R.L. Hüseynzadə
**Redaksiyaya daxil olub:** 11.12.2018.